

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Qəzet 1921-ci ildən çıxır

Sayı: 113 (21.014)

17 iyun 2014-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 15-də Yunanıstana dövlət səfərinə getmişdir.

* * *



İyunun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Afina Akropolunda olmuşlar.

Afinanın mərkəzində hündürlüyü 156 metrə çatan qayalıq meydançada yerləşən, dünya tarixinin və mədəniyyətinin şah əsərləri sırasında olan Akropol 3 min illik tarixə malik memarlıq abidələri ilə zəngindir və sanki muzeyi xatırladır. Qədim Afinanın həm dövlət, həm də dini mərkəzi sayılan Akropolun qorunmasına afinalılar bütün dövrlərdə ciddi fikir vermişlər.

Tarixən Afinanın həm hərbi, həm də dini mərkəzi rolunu oynayan Akropolun görkəmli yerində şəhərin hamisi ilahə Afinanın şərəfinə ucaldılmış Parfenon məbədi yerləşir.

Akropolun aşağı hissəsində isə bir zamanlar Afinanın ticarət və mülki mərkəzi hesab olunan qədim Aqora yerləşir. Keçmişdə Sokrat və Platon kimi görkəmli filosoflar gəzinti və söhbət üçün məhz bu məkanı seçmişdilər.

* * *

Yunanıstanda dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da naməlum əsgərin məzarını ziyarət etmişdir.

## Heydər Əliyev adına Hərbi Liseyin əməkdaşlarının təltif edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında təhsil sahəsindəki fəaliyyətlərinə görə:

Həsənov Abdulla İsmayıl oğlu

Seyidova Zərifə Heydər qızı – **"Əməkdar müəllim"** fəxri adı;

Seyidov Mirismayıl Miryəhya oğlu – **"Rəşadətli əməyə görə"** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 14 iyun 2014-cü il*

# Naxçıvanda Milli Qurtuluş Günü qeyd olunmuşdur

İyunun 15-də Milli Qurtuluş Günü münasibətilə Naxçıvan şəhərində tədbir keçirilmiş, yürüş təşkil edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül qoymuş, dahi şəxsiyyətin xatirəsini ehtiramla yad etmişdir.

Azərbaycan Respublikasının Dövlət himni səslənmişdir.

Nazirlik, komitə, baş idarə və müəssisələrin rəhbərləri, hərbi hissələrin komandirləri, elm, təhsil müəssisələrinin və ictimaiyyətin nümayəndələri də abidə önünə tər güllər düzmüşlər.





Ümummilli liderimiz Heydər Əliyevin 1993-cü il iyunun 15-də Azərbaycanda ali hakimiyyətə qayıdışı dövlətçilik tariximizin şanlı səhifəsini təşkil edir. Azərbaycan Respublikası Milli Məclisinin 1997-ci il 27 iyun tarixli qərarı ilə 15 iyun tarixi ölkəmizdə Milli Qurtuluş Günü elan edilmişdir. Milli Qurtuluş Günü Azərbaycanı güclü əsaslara söykənən davamlı sosial-iqtisadi inkişaf yoluna çıxarmış, Vətənimizi qorumağa qadir olan güclü ordumuz yaranmış, məhv olmaq təhlükəsi ilə üz-üzə qalan Azərbaycan xalqının bütövlüyü, həmrəyliyi, milli birliyi təmin edilmişdir.

Müdriklərin fikrinə görə, "öz ideyasında yalnız haqqa, ədalətə və müdrikliyə arxalanan liderlərin xalqa rəhbərlik haqqı vardır". Azərbaycan xalqı tarixən arzularında yaşatdığı güclü, müdrik və ədalətli lider idealını ötən əsrdə ümummilli liderimiz Heydər Əliyevin parlaq şəxsiyyətində tapdı. Bu mənada ulu öndərin 1969-cu ildə ölkəmizdə rəhbərliyə gəlişi dirçəliş və çiçəklənmə dövrü kimi xarakterizə olunursa, 1993-cü ildə ikinci dəfə siyasi hakimiyyətə qayıdışı xalqımızın Milli Qurtuluş tarixinin əsasını qoymuşdur.

Ümummilli liderimiz Heydər Əliyev milli qurtuluşun mükəmməl fəlsəfəsini yaratmış və onu müstəqil Azərbaycanın gələcək müqəddəratına çevirmişdir. Azərbaycan tarixinin 1969-cu ildən başlanan intibah dövrü 1993-cü ilin 15 iyununda özünün Milli Qurtuluş mərhələsinə yüksəlmişdir. Bu qurtuluşa Naxçıvandan hazırlanan zəmin isə müstəqil dövlətçilik tariximizin mühüm mərhələsini təşkil edir. 1990-cı ildə Naxçıvana gələn, sıravi deputat və sonradan Ali Məclisin Sədri kimi fəaliyyət göstərən ümummilli liderimizin rəhbərliyi ilə muxtar respublikada xalqımızın gələcəyi ilə bağlı ümumdövlət səviyyəli qərarlar qəbul edilmişdir.

***"Bütün həyatımı təhlil edəndə görürəm ki, hər halda, bir başlıca hadisə var, o da budur ki, mən Azərbaycanın müstəqilliyini təmin edə bilmişəm. Onu daxili çəkişmələr alovunda, dağıntılar və qan içində məhv olmağa qoymamışam"***, – deyən ümummilli liderimiz Heydər Əliyev şəxsiyyətinin əbədiliyi müstəqil Azərbaycanın qazandığı bütün uğurların mahiyyətindən böyükdür. Ulu öndərin ideyalarının tükənməzliyi və yaradıcı gücü xalqımızın nurlu gələcəyi üçün sönməz məşəldir.

On doqquzuncu əsr mütəfəkkirləri yazırdılar ki, "Şəxsiyyətlərin bütün xüsusiyyətlərini sadalamaq mümkün deyil, nə qədər ona çox diqqət yetirirsən, onda bir o qədər çox yeni keyfiyyətlər aşkarlanır və onların təsviri sonsuza qədər uzanır". Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev də məhz belə şəxsiyyətlərdəndir. Xalqına, Vətəninə sədaqətlə bağlı olan dahi liderin Azərbaycan dövləti qarşısındakı xidmətləri təkcə ölkəmizə rəhbərlik etdiyi dövrlərlə məhdudlaşmır. Ulu öndərin müəyyənləşdirdiyi siyasi xətt müstəqil Azərbaycanın gələcək inkişaf konsepsiyasıdır. Bu gün dahi şəxsiyyətin ən layiqli siyasi varisi, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan özünün inkişaf və intibah dövrünü yaşayır. Ölkəmizin iqtisadi inkişafı yeni mərhələyə qədəm qoymuş, əhalinin rifahı yaxşılaşmış, Azərbaycan dünyada söz sahibi olan dövlətə çevrilmişdir.



Ümummilli liderin quruculuq xəttinin uğurla davam etdirildiyi Naxçıvan Muxtar Respublikasında həyata keçirilən iqtisadi islahatlar da qısa tarixi dövr ərzində muxtar respublikada makroiqtisadi sabitliyin bərqərar olunmasını təmin etmiş, iqtisadiyyatın dinamik inkişafına təkan vermiş və əhalinin həyat səviyyəsi əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Təbii ki, qazanılan bu uğurlar ulu öndər Heydər Əliyevin yoluna sədaqətin bəhrəsi, Milli Qurtuluşdan başlanan inkişafın davamıdır.

Ali Məclisin Sədri və tədbir iştirakçıları 15 İyun – Milli Qurtuluş Günü münasibətilə keçirilən yürüşə baxmışlar.

Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının, "Naxçıvan" Sərhəd Diviziyasının, Daxili Qoşunların Naxçıvan Alayının, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi Mülki Müdafiə Alayının nümunəvi bölmələrinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun fəallarının və Yeni Azərbaycan Partiyası Heydər Əliyev adına Gənclər Birliyinin üzvlərinin iştirak etdikləri yürüş iştirakçıları Heydər Əliyev Sarayına qədər olan məsafəni və geri – Heydər Əliyev Muzeyinə qədər olan yolu təntənəli marş sədaları altında nizami addımlarla qət etmişlər. Mindən çox gəncin qatıldığı yürüş şəhər sakinləri tərəfindən alqışlarla qarşılanmışdır.

Həmin gün Naxçıvan Muxtar Respublikasının bütün rayon mərkəzlərində Milli Qurtuluş Günü münasibətilə tədbirlər keçirilmiş, ulu öndərin abidəsi önünə tər güllər düzülmüş, dahi şəxsiyyətin Azərbaycanın xilası uğrunda tarixi xidmətləri minnətdarlıqla yad edilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvanda Milli Qurtuluş Günü münasibətilə bayram konserti olmuşdur





İyunun 15-də Naxçıvanda Milli Qurtuluş Günü münasibətilə bayram konserti olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak etmişdir.



Tədbirin aparıcıları qeyd etmişlər ki, ulu öndərimiz Heydər Əliyevin öz xilaskarlıq missiyasına başladığı gün – 15 iyun Azərbaycan tarixinə "Milli Qurtuluş Günü" kimi daxil olmuşdur. 21 il bundan əvvəl ümummilli liderimizin ali hakimiyyətə qayıdışı qədim Naxçıvandan başlanmışdır. Naxçıvan dahi rəhbərimizin 3 illik siyasi fəaliyyətinin tarixiləşdiyi qədim torpaq və qurtuluşun vətənidir.

Ulu öndərimizin ali hakimiyyətə qayıdışı ilə Azərbaycan onu gözləyən bəlalardan xilas oldu. Bu xilaskarlıq missiyası müstəqil dövlətçilik tariximizə şanlı bir səhifənin başlanğıcı kimi daxil olmuşdur. Müstəqil Azərbaycana rəhbərlik etdiyi on il müddətində ümummilli liderimiz neçə-neçə qərinəyə sığmayan böyük işlər görmüş, ölkəmizi sürətli inkişaf və tərəqqi yoluna çıxarmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"1993-cü ilin 15 iyununa qədər Azərbaycan formal olaraq müstəqil dövlət idisə, həmin tarixdən sonra real müstəqilliyin əsası qoyuldu. 1993-cü ilə qədər Azərbaycanda hakimiyyətsizlik, siyasi hərc-mərclik, vətəndaş qarşıdurması hökm sürürdüsə, həmin tarixdən sonrakı dövr ölkəmizdə dövlət müstəqilliyinin möhkəmlənməsi ilə xarakterizə edilir. 1993-cü ildən sonra Azərbaycanın inkişafı göz qabağındadır. O vaxt Azərbaycanda hərc-mərclik var idisə, bu gün Azərbaycanda əmin-amanlıqdır. O vaxt Azərbaycanın iqtisadiyyatı tənəzzülə uğrayırdısa, bu gün Azərbaycan dünyada ən dinamik inkişaf edən ölkələrdən biridir. O vaxt Azərbaycanda total böhran hökm sürürdüsə, bu gün Azərbaycan qüdrətli ölkəyə çevrilmişdir".***

Qeyd olunmuşdur ki, bu gün Azərbaycan ümummilli liderimizin yolu ilə inamla irəliləyir, yeni-yeni uğurlara imza atır. Ölkə Prezidenti cənab İlham Əliyev ulu öndərin siyasi kursunu uğurla davam etdirir. Naxçıvan Muxtar Respublikası da Milli Qurtuluşun işığında böyük inkişaf yolu keçmişdir. Həyata keçirilən sosial-iqtisadi islahatlar, reallaşdırılan böyük layihələr Naxçıvana yeni həyat vermiş, onu intibaha qovuşdurmuşdur.Ulu öndərimizin tarixi xilaskarlıq missiyası olmasaydı, bugünkü Azərbaycan da olmayacaqdı. Bugünkü xoş və firavan həyata görə xalqımız daim ulu öndərə borcludur. Onun adı, işi və əməlləri qüdrətli Azərbaycanın hər yerində yaşayır və yaşayacaqdır. Yüz illər, min illər bundan sonra da xalqımız Azərbaycana səadət bəxş edən 15 İyun – Milli Qurtuluş Gününü sevinclə bayram edəcək, ulu öndərin tarixi xidmətlərini daim minnətdarlıqla xatırlayacaqdır.

Bayram konsertində Aysel Əlizadə, aşıq Əli Tapdıqoğlu və Röya Ayxanın çıxışları stadiona toplaşmış minlərlə tamaşaçının alqışları ilə qarşılanmışdır.

Sonda bayram atəşfəşanlığı olmuşdur.

Konsertdən sonra ifaçılarla görüşən Ali Məclisin Sədri onları Milli Qurtuluş Günü və uğurlu konsert münasibətilə təbrik edərək demişdir ki, hər bir ölkənin inkişafı onun mədəniyyətindən başlayır. Bu gün ölkəmizdə digər sahələrlə yanaşı, mədəniyyət də özünün intibah dövrünü yaşayır. Bütün bunlar isə Milli Qurtuluş Gününün bəhrələridir. Xalqımız Azərbaycana tərəqqi və inkişaf bəxş edən Milli Qurtuluş Gününü böyük təntənə ilə qeyd edir. Muxtar respublikada qurtuluş bayramı münasibətilə müxtəlif tədbirlər keçirilir. Bunun davamı olaraq, naxçıvanlılara sizin ifanızda bu bayrama layiq gözəl konsert proqramı təqdim edildi.

Bayram konserti Naxçıvan Dövlət Televiziyası ilə canlı yayımlanmışdır.

Həmin gün muxtar respublikanın rayon mərkəzlərində də 15 İyun – Milli Qurtuluş Günü münasibətilə el şənlikləri keçirilmiş, bayram konsertləri olmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



# Sosial qayğıya ehtiyacı olan vətəndaşlara minik avtomobilləri təqdim olunmuşdur

Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışı ilə tariximizə yazılan Milli Qurtuluş Günü müstəqil Azərbaycana inkişaf və tərəqqi, xalqımıza isə yüksək həyat şəraiti və sosial rifah bəxş etmişdir. Bu gün ulu öndərin müəyyənləşdirdiyi siyasi xəttin uğurla davam etdirilməsi eyni zamanda ölkə vətəndaşlarının həyat şəraitinin yaxşılaşdırılması ilə xarakterizə olunur. Sosial qayğıya ehtiyacı olan insanların mənzil və minik avtomobilləri ilə təmin olunması da bu baxımdan mühüm əhəmiyyətə malikdir.

İyunun 14-də – Milli Qurtuluş Günü ərəfəsində Naxçıvan şəhərində 5 Azərbaycan Vətən müharibəsi, 4 Çernobıl və 11 müharibə əlillərinə bərabər tutulan şəxslərə "NAZ-Lifan-320" markalı minik avtomobilləri təqdim edilmişdir.



Təqdimat mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov demişdir ki, muxtar respublikada sosial müdafiəyə ehtiyacı olan, o cümlədən sağlamlıq imkanları məhdud vətəndaşlara hərtərəfli qayğı göstərilir. Bu istiqamətdə görülən işlərin nəticəsidir ki, cari ilin ötən dövründə sağlamlıq imkanları məhdud 88 nəfərin Əlillərin Bərpa, 123 uşağın isə Uşaq Bərpa mərkəzlərində müalicələri təşkil olunmuş, 31 nəfər sanatoriya və pansionatlara göndərilmişdir. Məhdud fiziki imkanlıların məişət şəraitinin yaxşılaşdırılması da diqqət mərkəzində saxlanılmış, 20 nəfər minik avtomobili ilə təmin olunmuşdur. Bu kateqoriyadan olan 2 vətəndaş üçün fərdi yaşayış evinin tikintisi isə davam etdirilir. Cavid Səfərov göstərilən qayğıya görə müharibə iştirakçıları və sağlamlıq imkanları məhdud şəxslər adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbir iştirakçılarını salamlamış, yeni avtomobillərlə təmin olunanları təbrik edərək demişdir: "Bu gün muxtar respublikada Azərbaycan Vətən müharibəsi iştirakçılarına, Çernobıl qəzasının aradan qaldırılmasında iştirak edən və müharibə əlillərinə bərabər tutulan şəxslərə minik avtomobilləri təqdim edilir. Həyata keçirilən bu tədbir ölkəmizin iqtisadi inkişafının nəticəsi olmaqla yanaşı, həm də sosial qayğıya ehtiyacı olan vətəndaşlara göstərilən dövlət qayğısının daha bir ifadəsidir. Bu kateqoriyadan olan insanların çəkdikləri zəhmət, göstərdikləri xidmət dövlətimiz tərəfindən yüksək qiymətləndirilir, onlar minik avtomobilləri ilə təmin olunurlar".

Ali Məclisin Sədri demişdir: "Azərbaycan dövlətinin və xalqının həyatında iki tarix əlamətdardır. Bunlardan biri 1969-cu ilin 14 iyul günüdür ki, bu tarixdə ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın rəhbəri seçilmişdir. Həmin dövrdə dahi şəxsiyyətin apardığı uğurlu islahatlar və həyata keçirdiyi ardıcıl tədbirlər nəticəsində ölkəmiz keçmiş Sovetlər Birliyinin aqrar əlavəsindən özü-özünü təmin edən, dotasiyasız yaşayan və iqtisadiyyatın bütün sahələrinin inkişaf etdiyi bir respublikaya çevrilmişdir. Ölkəmizin həyatında ikinci əlamətdar tarix isə 1993-cü ilin 15 iyun günüdür. Bu tarixdə ümummilli liderimiz xalqın təkidli tələbi

*Ardı 3-cü səhifədə*

ilə yenidən ölkəmizdə siyasi hakimiyyətə qayıtmış, Azərbaycan xaosdan, vətəndaş müharibəsi təhlükəsindən sabitliyə, iqtisadi tənəzzüldən sürətli sosial-iqtisadi inkişaf yoluna qədəm qoymuşdur. 15 iyun Azərbaycan tarixinə "Milli Qurtuluş Günü" kimi yazılmışdır. Belə bir əlamətdar bayram günü ərəfəsində xüsusi qayğıya ehtiyacı olan vətəndaşlara minik avtomobillərinin təqdim olunması da ümummilli liderimizin müəyyənləşdirdiyi siyasi xəttin bəhrəsidir".

Qeyd olunmuşdur ki, bu gün Azərbaycan inkişaf edir, insanların rifah halı yüksəlir, xüsusi qayğıya ehtiyacı olan vətəndaşların sosial müdafiəsi gücləndirilir. Bütün bunlar isə ulu öndərimizin yoluna sədaqətin nəticəsində mümkün olur. Bu yola sədaqət Azərbaycanı bundan sonra da inkişaf və tərəqqiyə qovuşduracaqdır.

Avtomobillərin açarlarını təqdim edən Ali Məclisin Sədri yeni avtomobillərlə təmin olunanlara firavan həyat və xoş günlər arzulamış, onları 15 İyun – Milli Qurtuluş Günü münasibətilə təbrik etmişdir.

Minik avtomobilləri ilə təmin olunanlar göstərilən qayğıya görə minnətdarlıq etmiş və bunu ölkəmizdə insan amilinə verilən qiymətin daha bir ifadəsi kimi dəyərləndirmişlər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**



# Milli Qurtuluş Günü münasibətilə bayram konsertləri

## *Şərur rayonu*

Milli Qurtuluş Günü ilə başlayan ümumazərbaycan miqyaslı inkişaf və intibah proseslərindən Şərur rayonuna da pay düşmüşdür. Qeyd etmək lazımdır ki, hələ ümummilli liderin ölkəmizə rəhbərlik etdiyi birinci dövrdə Şərur rayonunda genişmiqyaslı abadlıq-quruculuq işləri aparılmışdır. Ulu öndərimizin bilavasitə rəhbərliyi və daimi nəzarəti ilə yaradılan Arpaçay Su Anbarı on minlərlə hektar əkinəyararlı sahənin suvarılmasına imkan vermişdir. Rayon sakinləri milli liderimizin rəhbərliyi ilə həyata keçirilən bu tədbirləri bu gün minnətdarlıq hissi ilə xatırlayırlar. Ümummilli lider Heydər Əliyev Şərur rayonunda olarkən demişdir: ***"Mən arzu edirəm ki, siz gələcəkdə öz işlərinizi daha da yaxşılaşdırasınız. Şərur rayonunun imkanları böyükdür. Burada yaxşı torpaqlar var, çox fədakar insanlar, sizlər varsınız. Arzu edirəm ki, buranı daha da abadlaşdırasınız, gözəlləşdirəsiniz və iqtisadiyyatınızı daha da inkişaf etdirəsiniz".***

Rayon sakinləri ulu öndərin bu tövsiyələrini layiqincə yerinə yetirməyə çalışırlar. Rayonda bir sıra infrastruktur layihələri həyata keçirilmiş, onlarla müasir bina inşa olunmuşdur. Demək olar ki, rayonun bütün idarə, müəssisə və təşkilatları müasir binalarda fəaliyyət göstərir. Bu isə torpaq qədri bilən, yurd təəssüblü şərurlulara yüksək səviyyədə çalışmağa imkan verir.

Bu gün ümummilli liderimizin yolunun uğurla davam etdirilməsinin nəticəsidir ki, Şərur inkişafın yeni mərhələsinə qədəm qoymuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu ilin aprel ayında muxtar respublikamıza səfəri zamanı istifadəyə verilən "Arpaçay-1" və "Arpaçay-2" Su Elektrik stansiyaları muxtar respublikanın 90 illik yubileyinin qeyd olunduğu bir zamanda şərurlulara müstəqil dövlətimizin hədiyyəsi olmuşdur.

15 İyun – Milli Qurtuluş Günü Şərur rayonunda da böyük təntənə ilə qeyd olunmuşdur. Həmin gün rayon ictimaiyyətinin nümayəndələri rayon mərkəzində ucaldılmış ulu öndərin heykəli önünə gül dəstələri qoymuşlar. Bu əlamətdar gün münasibətilə rayonda konsert proqramı təşkil edilmiş, Azərbaycan Respublikasının xalq artisti Simarə İmanova, məşhur "Favorit" musiqi qrupu və rayonda fəaliyyət göstərən musiqi kollektivlərinin ifaları şərurlular tərəfindən böyük maraq və alqışlarla qarşılanmışdır.

* * *

## *Şahbuz rayonu*



Xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf və tərəqqi siyasətinin bəhrələri yurdumuzun hər yerində olduğu kimi, Şahbuz rayonunda da öz möhtəşəmliyi ilə görünməkdədir. Hələ ötən əsrin 70-ci illərindən başlayaraq Şahbuzda iqtisadiyyatın inkişaf etdirilməsi, əhalinin güzəranının yaxşılaşdırılması istiqamətində mühüm işlər görülmüş, müstəqillik illərində ulu öndərin uzaqgörən siyasəti nəticəsində bu rayonun da həyatında yeni mərhələ – inkişaf və tərəqqi dövrü başlanmışdır. Şahbuzun hər yerində, onun ən ucqar yaşayış məntəqəsində belə, artıq hər keçən gün ulu öndər Heydər Əliyevin xalqımıza miras qoyduğu ən böyük sərvətin – müstəqilliyin və Milli Qurtuluşun bəhrələri açıq-aydın görünməkdədir. İndi rayonda aparılan hər quruculuq tədbiri, çəkilən hər yeni yol, abadlaşan hər bir kənd ulu öndərin reallaşan arzularının təcəssümüdür. Şahbuzlular ulu öndərin xalqımız qarşısındakı misilsiz xidmətlərinin, ölkəmizin, muxtar respublikamızın inkişafı naminə gərgin əməyinin bəhrələrini daim öz həyatlarında hiss edirlər. Bütün bunları dərindən dərk edən şahbuzlular Milli Qurtuluş Günündə ulu öndərin rayon mərkəzindəki abidəsini ziyarət etmiş, abidə önünə gül dəstələri düzmüşlər.

Milli Qurtuluş Günündə rayon mərkəzində geniş konsert proqramı olmuşdur. Tədbirin aparıcıları bildirmişlər ki, Milli Qurtuluş Günü Azərbaycan xalqı üçün, bizim hamımız üçün müqəddəsdir. Ona görə ki, ötən əsrin 90-cı illərində başımızın üstünü almış təhlükənin sovuşmasına, milli dövlətçiliyimizin xilasına və bu gün müstəqil Azərbaycanda sabitlik, əmin-amanlıq şəraitində yaşamağımıza görə Milli Qurtuluş Gününə borcluyuq. Bu bayram bizim üçün bir də ona görə müqəddəsdir ki, o, ulu öndər Heydər Əliyevin adı, siyasi və dövlətçilik fəaliyyəti ilə sıx bağlıdır. Ulu öndərin 1969-cu ildə ölkəmizdə birinci dəfə hakimiyyətə gəlməsi Azərbaycanın dirçəliş və çiçəklənmə dövrü kimi səciyyələnirsə, 1993-cü ildə xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdışı Milli Qurtuluş tariximizin yazılması ilə əlamətdardır. Milli Qurtuluş Günü Azərbaycanın dövlətçilik tarixində mühüm mərhələ təşkil edir.

Bayram şənliyində Azərbaycan Respublikasının əməkdar artistləri Gülyanaq və Gülyaz Məmmədova bacılarının, Naxçıvan Dövlət Filarmoniyası solistlərinin, rayon Mədəniyyət və Turizm Şöbəsinin nəzdində fəaliyyət göstərən ansamblların ifasında ulu öndərimiz Heydər Əliyevə, milli qurtuluşumuza, müstəqilliyimizə həsr olunmuş musiqi nömrələri səsləndirilib.

* * *

## *Ordubad rayonu*

Ümummilli liderimiz Heydər Əliyevin "Azərbaycanın incisi" adlandırdığı Ordubad rayonu Milli Qurtuluş Günündən ötən dövr ərzində böyük inkişaf yolu keçib. Rayon iqtisadiyyatının inkişaf etdirilməsi, bölgədə yeni iş yerlərinin yaradılması, insan amilinə xidmət edən digər məqsədyönlü tədbirlərin həyata keçirilməsi ümummilli liderin Azərbaycana rəhbərliyinin hər iki dövründə diqqətdə saxlanılıb. Milli Qurtuluş Günündən üzü bəri belə tədbirlər daha geniş vüsət alıb. Zəngin fauna və floraya, tarixi-mədəni abidələrə malik olan Ordubad şəhərinin əvvəlcə qoruq, sonra rayon ərazisinin yasaqlıq elan edilməsi, müstəqillik illərində burada milli park yaradılması, yeni istehsal müəssisələrinin işə salınması dahi şəxsiyyətin bu bölgəyə böyük qayğısının ifadəsi kimi dəyərləndirilir.

Vurğulamaq gərəkdir ki, son 21 il ərzində bölgənin ən ucqar dağ və sərhəd kəndlərinin belə, siması dəyişib, bu yaşayış məntəqələrində tikinti-quruculuq işləri geniş vüsət alıb. Yeni tikililər qədim yurd yerinə yeni görkəm gətirib. Aparılan məqsədyönlü tədbirlər insanların həyata baxışlarını da dəyişib. Bir sözlə, Ordubad tarixiliyini saxlamaqla ən abad və füsunkar bir yurd yerinə çevrilib.

Ordubadlılar dərindən dərk edirlər ki, bütün bunlar muxtar respublikada Heydər Əliyev yoluna sədaqətin ifadəsi hesabınadır. Odur ki, xalqımızın dahi oğlu rayon sakinləri tərəfindən daim minnətdarlıqla, böyük sevgi hissləri ilə xatırlanır, ümummilli liderimizin xatirəsi əziz tutulur.

Bu hisslər iyun ayının 15-də bir daha yaşanıb. Həmin gün rayon ictimaiyyətinin nümayəndələri rayon mərkəzində ucaldılmış ulu öndərin abidəsi önünə gül dəstələri qoyublar.

Milli Qurtuluş Günü münasibətilə rayon mərkəzində keçirilən bayram konsertindən əvvəl qeyd olunub ki, 1993-cü ilin 15 iyununa qədər Azərbaycan formal olaraq müstəqil dövlət idisə, həmin tarixdən sonra real müstəqilliyin əsası qoyuldu, Azərbaycan qüdrətli dövlətə çevrildi.

Konsert proqramında rayonun mədəniyyət müəssisələrində fəaliyyət göstərən ansamblların üzvlərinin ifasında bir-birindən rəngarəng mahnılar, rəqslər ifa olunub.

## *Babək rayonu*



15 İyun – Milli Qurtuluş Günü Azərbaycan xalqının dövlətçilik tarixində ən əlamətdar bayramlardan biridir. Çünki məhz 1993-cü ilin 15 iyun tarixində sınaq dövrünü yaşayan Azərbaycan xalqı özünün nicat yolunu tapmışdır. Hər il həmin gün ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızda da geniş şəkildə qeyd olunur, keçirilən tədbirlərdə ulu öndərin Azərbaycan xalqı qarşısında göstərdiyi misilsiz xidmətləri dönə-dönə vurğulanır, dahi rəhbərə sonsuz məhəbbət hissləri ifadə olunur. Naxçıvan Muxtar Respublikasında keçirilən tədbirlərə Babək rayonunda təşkil edilən konsert proqramları da əlavə olunmuşdur. Babək Rayon İcra Hakimiyyətinin, rayonun idarə və müəssisələrinin, təhsil ocaqlarının və ictimaiyyətin nümayəndələri rayon mərkəzində Azərbaycan dövlətinin qurucusu və memarı, görkəmli dövlət xadimi Heydər Əliyevin əzəmətlə ucalan abidəsi önünə gül dəstələri qoymuşlar.

Günün birinci yarısında rayonun Cəhri və Nehrəm kəndlərində geniş konsert proqramı təşkil olunmuşdur. Rayon mərkəzində davam etdirilən konsert proqramına ulu öndərin ölkəmizdə yaratdığı möhkəm sabitlik və əmin-amanlıq şəraitində yaşayan yüzlərlə babəkli toplaşmışdı.

Konsert proqramında qeyd olunmuşdur ki, Babək rayonunun yaradılmasından 36 il keçir. Naxçıvan Muxtar Respublikasında yeni rayonun təşkil olunması ideyası ötən əsrin 70-ci illərində ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı quruculuq tədbirlərinin, Azərbaycanın dağ və sərhəd rayonlarının daha da möhkəmləndirilməsi siyasətinin məntiqi nəticəsi kimi ortaya çıxmışdır. 1978-ci il oktyabrın 23-də təşkil olunmuş yeni rayona mərkəzi hakimiyyətin iradəsinin əksinə olaraq Babək adının verilməsi ulu öndərimizin qətiyyətinin, daim Azərbaycançılıq mövqeyində dayanmasının, milli yaddaşın bərpası istiqamətində həyata keçirdiyi taleyüklü tədbirlərin nəticəsi idi.

Yarandığı dövrdən ötən müddət ərzində Babək rayonu böyük inkişaf yolu keçmiş, Heydər Əliyev quruculuq xəttinin yaradıcı gücünün konkret bir regionda əyani ifadəsinə çevrilmişdir. Mövcud potensialın səmərəli realizə edilməsi, rayonun malik olduğu əmək ehtiyatlarının və digər resurslarının konkret məqsədlərə yönəldilməsi Babək rayonunun bugünkü inkişafını şərtləndirən başlıca amildir. 2008-ci ildə rayonun 30 illiyinin geniş şəkildə qeyd olunması bu bölgənin inkişafına göstərilən dövlət qayğısının əyani ifadəsidir.

Tədbirdə Azərbaycanın tanınmış müğənniləri Ayan Balakişiyevanın, Ayşən Mehdiyevanın və Babək Rayon Mədəniyyət Evinin üzvləri Samir İsmayılovun, Yaşar Qurbanovun ifasında səslənən və qəlbləri riqqətə gətirən şux mahnılar bayram iştirakçılarına xoş ovqat bəxş etmişdir. Konsert proqramında, əsasən, müstəqilliyimizi, xalqımızın şanlı tarixini, yurdumuzun gözəlliklərini tərənnüm edən musiqi nömrələri səsləndirilmişdir.

Bir sözlə, 15 İyun – Milli Qurtuluş Günü muxtar respublikamızın hər yerində olduğu kimi, Babək rayonunda da yüsək əhval-ruhiyyə ilə qeyd olunmuşdur.

* * *

## *Kəngərli rayonu*



Ümummilli liderimiz Heydər Əliyev müstəqil Azərbaycana rəhbərlik etdiyi on il ərzində qərinələrə sığmayan işlər görmüş, ölkəmizin hərtərəfli inkişafını təmin edərək onun hüquqi və demokratik əsaslara malik dövlət kimi formalaşmasında misilsiz xidmətlər göstərmişdir. Ancaq bu inkişafı təmin etmək heç də asan olmamışdır. 1993-cü ilin 15 iyun tarixinədək daxili və xarici siyasətdə yol verilmiş nöqsanlar üzündən fəlakətlər burulğanına düşən Azərbaycanın xilası yalnız ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışından sonra mümkün olmuşdur. Milli dövlətçiliyimizin xilas olunduğu həmin gün tarixə "Milli Qurtuluş Günü" kimi daxil olmuşdur.

Müstəqil Azərbaycanda sabitlik və inkişafın təməlinin qoyulduğu həmin tarixi gün Kəngərli rayonunda da böyük təntənə ilə qeyd edilmişdir. Həmin gün rayon ictimaiyyətinin nümayəndələri rayon mərkəzində ucaldılmış ulu öndərin heykəli önünə gül dəstələri qoymuşlar. Bu münasibətlə Qıvraq qəsəbəsində möhtəşəm bayram konserti keçirilmişdir. Tədbirdə 2007-ci ildə keçirilmiş respublika muğam müsabiqəsinin qalibi Könül Tağıyevanın, Azərbaycanın tanınmış müğənnisi Vahidə Zeynalovanın çıxışları tamaşaçıların alqışları ilə qarşılanmışdır.

*Ardı 4-cü səhifədə*

Əvvəli 3-cü səhifədə

## Sədərək rayonu

Sədərək rayonu ərazisində bir çox yaşayış massivlərinin salınması, bu rayonun yaradılması, inkişafı və tərəqqisi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün rayon mərkəzi olan Heydərabad qəsəbəsinin əsası hələ ümummilli liderin Azərbaycana birinci rəhbərliyi dövründə qoyulmuşdur.

XX əsrin 90-cı illərinin əvvəllərində Sədərək Ermənistan tərəfindən hücumlara məruz qalmışdır. Naxçıvan Muxtar Respublikasının Ermənistanla sərhəd bölgəsi olan, Naxçıvanın qala qapısı sayılan Sədərəkdə Azərbaycanın ərazi bütövlüyü uğrunda 1990-1993-cü illərdə ağır döyüşlər getmişdir. O zaman buradakı ağır vəziyyətlə bilavasitə tanış olan ümummilli lider Heydər Əliyev bu təcavüzün və işğalın qarşısının alınması üçün misilsiz xidmətlər göstərmiş, dünyanın diqqətini burada baş verən hadisələrə yönəltmişdir.

Ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olduğu dövrdə Sədərək rayonunun erməni işğalından qorunması, bölgənin sosial infrastrukturunun möhkəmləndirilməsi, əhalinin güzəranının yaxşılaşdırılması, sərhəd bölgəsinin sosial-iqtisadi inkişafının təmin edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Araz çayı üzərində Türkiyə ilə Azərbaycanı birləşdirən Sədərək-Dilucu körpüsü tikilmiş, Türkiyənin həmsərhəd vilayətlərindən Sədərəyə elektrik xətti çəkilmişdir.

Ümummilli liderin müəyyənləşdirdiyi inkişaf konsepsiyasını muxtar respublikamızda uğurla həyata keçirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ulu öndərimizin tövsiyələrinə uyğun olaraq, bu tarixi və strateji Azərbaycan rayonuna xüsusi diqqət yetirir. Sədərəklilər bu gün ümummilli liderin Sədərək rayonunun yaradılması, Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsində xidmətlərini dərin hörmət və ehtiramla xatırlayırlar. Onlar qürur duyurlar ki, məhz bu rayonun mərkəzi Azərbaycan xalqının və ümumilikdə, bütün türk dünyasının böyük oğlu Heydər Əliyevin adını daşıyır. İyunun 15-də rayon sakinləri rayon mərkəzində ucaldılmış ulu öndərin abidəsi önünə gül dəstələri qoymuşlar.

Həmin gün Sədərək rayonunda da konsert proqramı təşkil olunmuş, qeyrət qalası Sədərəkdə ucalan vətənpərvərlik musiqilərinin sədaları məhz sədəräklilərin əhval-ruhiyyəsinin təcəssümü olmuşdur.

## Culfa rayonu



İyunun 15-də Culfa rayonunda da Milli Qurtuluş Günü qeyd olunmuşdur.

Həmin gün rayon ictimaiyyətinin nümayəndələri rayon mərkəzində ucaldılmış ulu öndərin büstü önünə gül dəstələri qoymuşlar.

Axşam saatlarında təşkil edilən konsert proqramında tədbirin aparıcısı rayon sakinlərini bayram münasibətilə təbrik edərək qeyd etmişdir ki, 1991-ci ildə Azərbaycan xalqı illər boyu ürəyində yaşatdığı arzusuna – azadlıq, müstəqillik arzusuna çatdı. Lakin çox keçmədi ki, müstəqillik duyğusunun yaratdığı sevincin yerini iztirab, narahatlıq tutdu, ölkəmiz ağır sınaqlarla üzləşdi. 1991-ci ildə Azərbaycana rəhbərlik edən şəxslərin düşünülməmiş siyasəti, səriştəsizliyi və bacarıqsızlığı yenicə müstəqillik qazanmış gənc respublikanı uçuruma sürükləyirdi. 1991-1993-cü illərdə ölkəmizdə yaranmış anarxiya və xaos, hadisələrin sonrakı gedişatı sübut etdi ki, yalnız xalqımızın böyük oğlu Heydər Əliyev Azərbaycanı bu bəladan xilas edə və xalqımızın yenidən əldə etdiyi müstəqilliyini yaşada bilər. 1993-cü ilin iyun ayında Azərbaycanda böhranlı vəziyyət son həddə çatmışdı. İstər daxili, istərsə də xarici siyasətdə yol verilmiş nöqsanlar, son nəticədə, ölkəni gərgin, fəlakətli bir vəziyyətə salmışdı. Belə bir ağır, taleyüklü məqamda xalqımız siyasi müdriklik və əsl uzaqgörənlik nümayiş etdirərək yeganə xilaskarına, görkəmli dövlət xadimi Heydər Əliyevə üz tutdu, ulu öndərimizi təkidlə hakimiyyətə dəvət etdi.

Ulu öndərimiz müstəqil Azərbaycana rəhbərlik etdiyi on il müddətində əsrlərə sığmayan böyük işlər görmüş, ölkədə vətəndaş həmrəyliyi, siyasi sabitlik, qanunların aliliyinə əsaslanan hüquqi-demokratik idarəçilik sistemi bərqərar edilmiş, milli Konstitusiyamız qəbul olunmuş, Azərbaycan sürətli inkişaf və tərəqqi yoluna çıxmışdır. Bu gün Azərbaycan Heydər Əliyev yolu ilə inamla irəliləyir, yeni-yeni uğurlara imza atır. Ölkə Prezidenti cənab İlham Əliyev ulu öndərin siyasi kursunu uğurla davam etdirir. Artıq Azərbaycan iqtisadi inkişaf tempinə görə lider dövlətə çevrilmişdir.

Naxçıvan Muxtar Respublikası da Milli Qurtuluşun işığında böyük inkişaf yolu keçmişdir. Həyata keçirilən sosial-iqtisadi islahatlar, reallaşdırılan böyük layihələr muxtar respublikamızı tərəqqiyə qovuşdurmuşdur.

Bayram konsertində Culfa rayonundakı mədəniyyət müəssisələrinin musiqi kollektivlərinin çıxışları alqışlarla qarşılanmışdır.

## Milli Qurtuluş və nicat günü

***Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında 15 İyun – Milli Qurtuluş Günü ilə əlaqədar tədbir keçirilmişdir.***

Tədbiri giriş sözü ilə şuranın sədri Sucaxan Novruzov açaraq bu günün əhəmiyyətindən danışmışdır. Qeyd edilmişdir ki, 15 iyun müasir Azərbaycan tarixinə xalqımızın və dövlətçiliyimizin xilası günü kimi yazılmışdır. Həmin gün ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyət sükanı arxasına keçmiş, ölkəmizi parçalanmaqdan, xalqımızı qardaş qırğınından xilas etmişdir. Müdrik rəhbər dərin düşüncəsi, uzaqgörən siyasəti ilə Azərbaycanda baş vermiş xaos və anarxiyanın qarşısını almış, ölkəmizi yeni inkişaf yoluna çıxarmışdır.

Tədbirdə şura əməkdaşlarından Səbuhi Hüseynov, Faiq Əsgərov, Rəşadət Xudaverdiyev və başqaları çıxış edərək bildirmişlər ki, Azərbaycanın dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi ulu öndər Heydər Əliyevin ideyalarının başlıca qayəsini təşkil edir. Ölkəmizdə həyata keçirilən siyasi kursun mahiyyətində məhz bu amil dayanır. Heydər Əliyev siyasətini layiqincə yaşatmaqla yanaşı, həm də dövlət idarəçiliyində və siyasət meydanında yeni məktəbin banisi olan Azərbaycan Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasi kurs Azərbaycanın dövlət müstəqilliyini daha da möhkəmləndirir.

**Xəbərlər şöbəsi**

17 iyun tibb işçilərinin peşə bayramıdır

## Muxtar respublika səhiyyəsi hərtərəfli inkişaf yolundadır









***Ümummilli liderimiz Heydər Əliyevin 2001-ci il 4 iyun tarixli Sərəncamı ilə hər il iyunun 17-si ölkəmizdə tibb işçilərinin peşə bayramı kimi qeyd olunur.***

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev respublikamızda səhiyyənin inkişafına daim xüsusi diqqət yetirmiş, tibb işçilərinə böyük qayğı göstərmişdir. ***"Həkimlik peşəsi öz xalqına, sənətinə yüksək sədaqət tələb edən bir işdir"***, – deyən ulu öndərin himayəsi ilə hələ ötən əsrin 70-ci illərində respublikamızın şəhər, rayon və kəndlərində səhiyyə ocaqları tikilərək istifadəyə verilmiş, əhalinin sağlamlığının qorunması diqqət mərkəzində saxlanılmışdır. Müstəqillik illərində də dahi şəxsiyyətin rəhbərliyi ilə səhiyyə sahəsində ardıcıl tədbirlər görülmüş, bu sahədə fəaliyyəti tənzimləyən zəngin qanunvericilik bazası yaradılmış, həkimlərin və tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, ixtisaslı və peşəkar həkim kadrlarının hazırlanması diqqət mərkəzində saxlanılmışdır.

Bu gün Azərbaycan səhiyyəsi özünün yeni inkişaf mərhələsini yaşayır. Ölkə Prezidenti cənab İlham Əliyev səhiyyə sisteminin inkişafını, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsini və infrastrukturun yenilənməsini daim diqqət mərkəzində saxlayır. Səhiyyənin inkişafı, əhalinin dünya standartlarına uyğun tibbi yardımla təchiz olunması istiqamətində genişmiqyaslı islahatlar həyata keçirilir.

İnsanların sağlamlığının yaxşılaşdırılması, əhalinin bütün təbəqələrinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsi məqsədilə muxtar respublikada da mühüm işlər görülür. Səhiyyə infrastrukturunun yenilənməsi, yeni ambulator və stasionar müalicə-profilaktika müəssisələrinin yaradılması əhalinin sağlamlığının qorunması işində əsaslı dönüşə səbəb olmuş, keyfiyyətli dərman və tibbi ləvazimatlarla təchizat yaxşılaşdırılmış, ana və uşaqların, ahıl vətəndaşların sağlamlığının qorunması prioritet məsələyə çevrilmişdir.

Müasir dövrdə sağlamlığın təminatı cəmiyyətin sosial güzgüsü sayılır. Bu reallıq nəzərə alınaraq səhiyyə xidmətlərinin müasir dövrün tələblərinə uyğunlaşdırılması, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi, infrastrukturun yeniləşdirilməsi diqqət mərkəzində saxlanılır, yeni səhiyyə obyektləri tikilir. Son illər muxtar respublikanın ucqar kəndlərində belə, həkim ambulatoriyaları, feldşer-mama məntəqələri istifadəyə verilmiş, səhiyyə xidməti günün tələbləri səviyyəsində qurulmuşdur. Hazırda Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzi, Qazanılmış İmmun Çatışmazlığı Sindromu ilə Mübarizə və Profilaktika (QİÇS) Mərkəzi, Dəri-Zöhrəvi Dispanseri üçün yeni binalar tikilir, muxtar respublika xəstəxanasının binasında əsaslı yenidənqurma işləri aparılır. Bütövlükdə, son 18 ildə 200-dən çox səhiyyə obyektinin istifadəyə verilməsi Naxçıvan Muxtar Respublikasında bu sahəyə göstərilən diqqət və qayğının əyani ifadəsidir.

Muxtar respublikamıza səfəri çərçivəsində ölkə başçısı cənab İlham Əliyev Naxçıvanda yeni tibb ocaqlarının tikintisini yüksək dəyərləndirərək demişdir: ***"Yeni xəstəxanaların açılışı artıq Naxçıvanda gözəl ənənəyə çevrilibdir... Onların hamısı yüksək keyfiyyətlə tikilib, yüksək standartlara cavab verir. Çox sevindirici haldır ki, muxtar respublikanın bütün rayonlarında gözəl, yeni, müasir tibb ocaqları tikilir. Burada quraşdırılan avadanlıq ən yüksək səviyyəyə layiqdir. Həm həkimlər üçün, həm də xəstələrin müalicəsi üçün bütün şərait var".***

Səhiyyə sahəsində görülən işlər ancaq quruculuq tədbirləri ilə yekunlaşmır. Tibb ocaqlarının müasir avadanlıqlar, müayinə və müalicə aparatları ilə təchiz edilməsi, lazımi şəraitin yaradılması hər bir vətəndaşa öz sağlamlığını qorumağa geniş imkanlar açmışdır. Ölkəmizin paytaxtında fəaliyyət göstərən yüksəkixtisaslı həkim briqadalarının dəvət olunaraq muxtar respublikamıza gətirilməsi və aztəminatlı ailələrdən olan xəstələrin başqa ünvanlara üz tutmadan müayinəsinin və cərrahiyyə əməliyyatlarının təşkili artıq ənənə halını almışdır. Təkcə ötən il ərzində Türkiyə Respublikasından və Bakı şəhərindən mütəmadi olaraq dəvət olunmuş oftalmoloqlar, kardiocərrahlar, plastik və laporoskopik cərrahlar tərəfindən Naxçıvan Muxtar Respublikası Göz Xəstəxanasında 104, Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində 50 açıq ürək, 71 angioqrafiya və digər əməliyyatlar aparılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin birgə razılaşdırılmış tədbirlər planına uyğun olaraq, muxtar respublikamızın 90 illik yubileyi çərçivəsində bir sıra humanitar aksiyalar təşkil olunmuşdur. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin yüksəkixtisaslı həkim briqadalarının muxtar respublikamıza gəlməsi aztəminatlı ailələrdən olan xəstələrin müayinə və müalicəsinə şərait yaratmışdır. Ölkə başçısının tapşırığına əsasən, bu il fevralın 17-dən may ayınadək davam edən əhalinin icbari dispanserizasiyası muxtar respublikamızda da uğurla həyata keçirilmişdir.

Naxçıvan Muxtar Respublikasında səhiyyənin inkişafı istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində kadr təminatının təkmilləşdirilməsi də vacib məsələ kimi daim diqqət mərkəzində saxlanılır. Naxçıvan Dövlət Universitetində və Naxçıvan Tibb Kollecində ali və orta ixtisaslı tibb kadrları hazırlanır. Artıq muxtar respublikanın xəstəxanalarında bu təhsil ocaqlarını bitirən gənc tibb işçiləri də çalışırlar. Bununla yanaşı, həkimlərin peşə vərdişlərinin artırılması məqsədilə çoxsaylı seminarlar, konfranslar keçirilir, tibb işçiləri Bakı şəhərinə və Türkiyə Respublikasının müxtəlif klinika və xəstəxanalarına kurslara göndərilirlər. Bütün bunların nəticəsidir ki, muxtar respublikadan olan həkimlər müstəqil şəkildə xəstələr üzərində açıq ürək, laporoskopik, TUR, LOR, göz və digər mürəkkəb cərrahi əməliyyatlar aparırlar.

Müasir dövrdə əhalinin sağlamlığının qorunması istiqamətində həyata keçirilən tədbirlərin əsas istiqamətlərindən birini də səhiyyə maarifi işi təşkil edir. Həkimlərin, tibb işçilərinin üzərinə düşən vəzifələrdən biri də aparılan müayinə və müalicələrlə yanaşı, xəstəliklərə qarşı insanları məlumatlandırmaqdan ibarətdir. Muxtar respublikada səhiyyə maarifinin düzgün təşkili uşaqlara peyvəndlərin vaxtında vurulmasına səbəb olmuşdur. Əhali arasında səhiyyə maarifinin gücləndirilməsində və yerlərdə onlara tibbi xidmət göstərilməsində həkim briqadalarının böyük rolu var. Bu briqadalar qrafik əsasında kəndlərdə olur, əhaliyə xidmət göstərirlər. Bu da xəstəliklərin qarşısının alınması, onların erkən aşkar edilməsi və vaxtında tam müalicə olunması baxımından əhəmiyyətlidir.

Naxçıvan Muxtar Respublikasında əhaliyə 235 tibb müəssisəsi tərəfindən tibbi xidmət göstərilir. Tibb müəssisələrində 734 həkim, 2 mindən artıq orta tibb işçisi çalışır. Muxtar respublikanın səhiyyə müəssisələrində çalışan tibb işçilərinin əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir, onlar orden və medallarla, fəxri adlarla təltif olunurlar.

***Muxtar respublikamızda aparılan genişmiqyaslı islahatlar səhiyyə sisteminin də müasirləşməsi ilə xarakterizə olunur. Bu da tibb işçilərinin üzərinə böyük məsuliyyət qoyur. Peşə bayramlarını yüksək nailiyyətlərlə qeyd edən tibb işçiləri bundan sonra da muxtar respublika səhiyyəsinin inkişafına öz layiqli töhfələrini verəcəklər.***

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV
Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 527